# Zəfərin taclandırdığı suverenlik

## Müzəffər Ali Baş Komandanla xalqın birliyi, milli iradənin təcəssümü

**Müharibədə olunan mücadilə yalnız torpaq deyil, bu torpağın tam müstəqil, azad və heç kimdən asılı olmadan idarə edilməsi uğrundadır. Bu ifadə xüsusilə vətən, azadlıq mübarizəsi və ya milli-azadlıq hərəkatları kontekstində çox güclü səslənir. Azərbaycanın yaxın tarixindəki 44 günlük Vətən müharibəsi çərçivəsində bu cür ifadə həm ideoloji, həm də milli qürur baxımından böyük önəm daşıyır.**

Müstəqil Azərbaycanın dövlətçilik tarixində əldə olunan hər bir zəfər, əslində, suverenliyimizin möhkəmləndirilməsinə atılmış strateji addımdır. Bu baxımdan 44 günlük Vətən müharibəsi və ardınca 2023-cü ildəki 23 saatlıq antiterror tədbirləri təkcə hərbi-siyasi qələbə deyil, həm də dövlətin tam suverenlik yolunda atdığı addımların dönüş nöqtəsidir.

Azərbaycan Respublikasının Konstitusiyasına əsasən, ölkənin ərazi bütövlüyü və suverenliyi toxunulmazdır. Lakin təxminən 30 il ərzində bu prinsip real olaraq pozulmuşdu. BMT, ATƏT və digər beynəlxalq təşkilatların qəbul etdiyi qətnamələrə baxmayaraq, Ermənistanın işğalçı siyasəti nəticəsində Azərbaycanın beynəlxalq səviyyədə tanınmış əraziləri faktiki olaraq nəzarətdən kənarda qalmışdı. Bu isə dövlət suverenliyinin real şəkildə məhdudlaşdırılması demək idi.

Azərbaycan Silahlı Qüvvələrinin 2020-ci ilin payızında həyata keçirdiyi əks-hücum əməliyyatları Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın suveren hüquqlarının bərpası üçün strateji bir mərhələ oldu. Lakin etiraf etməliyik ki, 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatla münaqişəyə son qoyulsa da, Xankəndi və ətraf ərazilərdə qanunsuz erməni silahlı birləşmələrinin qalması suverenliyin tam təmin olunmasına maneə törədirdi.

Vətən müharibəsindən əvvəlki dövrdə də, sonra da Azərbaycan-Ermənistan münaqişəsi mövzusunda danışarkən Prezident İlham Əliyev hər zaman bəyan edirdi ki, Azərbaycan ərazisində ikinci "Ermənistan" dövlətinin yaradılmasına heç vaxt imkan verilməyəcək. Amma 44 günlük hərbi əməliyyatlar nəticəsində diz çökdürülən Ermənistan, eləcə də Qarabağda olan separatizmin qalıqları nə bu bəyanatlardan, nə də müharibədən dərs çıxarmaq fikrində idi. Əksinə, Ermənistan 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın şərtlərini icra etmək əvəzinə, gizli yollarla Qarabağdakı separatçılara silah-sursat göndərir, erməni silahlı dəstələri mütəmadi olaraq təxribatlar törədir, mina terrorunu davam etdirmək məqsədilə Ermənistanda istehsal edilmiş minaları ərazilərimizdə basdırmaqla məşğul olurdular. Erməni separtçılar həmçinin təbii resurslarımızı talayırdılar. Bunlar azmış kimi, silahlı dəstələrin Azərbaycan ərazisindən çıxarılması üçün ölkəmizin haqlı tələblərindən, eləcə də Qarabağda yaşayan əhaliyə reinteqrasiya çağırışından yayınan separatçılar "müstəqillik" iddialarından əl çəkmir, özlərinin oyuncaq "prezident"lərini seçir, qondarma "parlament"ləri adından Azərbaycan dövlətinin əleyhinə bəyanatlar verirdilər.

2023-cü il sentyabrın 19-da Azərbaycanın Qarabağ bölgəsindəki erməni silahlı qüvvələri bir sıra genişmiqyaslı hərbi təxribatlar və terror hücumları törətdilər. Erməni kəşfiyyat-diversiya qrupları tərəfindən Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda terror məqsədilə əvvəlcədən quraşdırılmış minaların partlaması nəticəsində mülki şəxslər, Daxili İşlər Nazirliyinin əməkdaşları şəhid oldu və yaralandılar. Üstəlik, ordumuzun bölmələri minaatanlardan və müxtəlif çaplı atıcı silahlardan atəşə tutuldu. Nəticədə Azərbaycan Ordusunun iki hərbi qulluqçusu yaralandı. Həmin gün Azərbaycanın Qarabağ bölgəsində qanunsuz yerləşdirilmiş erməni silahlı qüvvələrinin növbəti terror aktı nəticəsində Ağdam və Şuşa şəhərlərində müvafiq olaraq iki mülki əməkdaş da həlak oldu.



Qanunsuz erməni silahlı birləşmələrinin döyüş mövqelərini gücləndirməsi və bölmələrini yüksək döyüş hazırlığı səviyyəsinə gətirməsi Azərbaycan Ordusunun bölmələri tərəfindən təsbit edildi. Bütün bu təxribatların qarşısının alınması, üçtərəfli Bəyanatın müddəalarının icrasının təmin olunması, Azərbaycan Respublikasının konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə bölgədə lokal xarakterli antiterror tədbirlərinə başlanıldı. Cəmi 23 saat 43 dəqiqə ərzində separatçılar ağ bayraq qaldırmalı oldular və bununla da Azərbaycan ərazilərində separatizmin kökü kəsildi.

Separatçı rejimin rəhbəri Samvel Şahramanyan sentyabrın 28-də qondarma rejiminin ləğvi ilə bağlı sənəd imzaladı. Antiterror tədbirləri nəticəsində Qarabağdakı xunta rejimi, bu rejimə rəhbərlik edən və imkan düşən kimi xalqımıza qarşı hədə-qorxular səsləndirən, müharibə olacağı halda Bakıya qədər gələcəkləri ni deyən "prezident"lər, "nazir"lər və "general"lar həbs edildilər. Azərbaycan oğullarının müşayiəti ilə onların qolları bağlı vəziyyətdə həbsxana kameralarına salınması isə dünya xəbər agentliklərinin ən çox tirajladığı xəbərə çevrildi. İmperialist siyasətindən əl çəkməyən bəzi dövlətlərin, islamofob beynəlxalq qurumların dəstəklədiyi ermənilərin həbs edilməsi dövlətimizin iradəsinin, gücünün və prinsipiallığının növbəti göstəricisi idi.

Üçrəngli bayrağımız Xankəndi, Xocalı, Ağdərə, Xocavənd və Əsgəranda da ucaldıldı. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin düşünülmüş, uzaqgörən, qətiyyətli siyasəti nəticəsində ərazi bütövlüyümüz və dövlət suverenliyimiz tam təmin edildi. Dövlət başçısının müvafiq sərəncamına əsasən, sentyabrın 20-si Xankəndi, Xocalı, Ağdərə, Xocavənd Şəhər günləri kimi qeyd olunmağa başladı.

Məhz buna görə də 2023-cü ilin sentyabrında Azərbaycan Silahlı Qüvvələrinin Qarabağda keçirdiyi lokal antiterror tədbirləri son nöqtəni qoydu - ölkənin bütün ərazisində konstitusiya quruluşu bərpa olundu. Bu, yalnız hərbi deyil, həm də hüquqi, siyasi və ideoloji baxımdan suverenliyin bərpası idi.

Suverenliyin təmin olunması yalnız bayrağın dalğalanması ilə ölçülmür. Dövlətin qanunlarının həmin ərazilərdə tam qüvvədə olması, idarəetmənin, hüquq-mühafizə və sosial institutların orada fəaliyyət göstərməsi, vətəndaşların hüquq və azadlıqlarının reallaşması suverenliyin praktiki tərəfləridir.

Hazırda Azərbaycan dövləti azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işləri aparır. Bu, təkcə fiziki infrastrukturun deyil, həm də ictimai institutların və milli kimliyin yenidən qurulması deməkdir. Bu prosesin mərkəzində isə Azərbaycan vətəndaşı dayanır. Reinteqrasiya prosesində etnik, dini və mədəni müxtəlifliyin qorunması da dövlətin suveren, eyni zamanda humanist xarakterini göstərir.

Azərbaycanın əldə etdiyi bu suverenlik regional və qlobal kontekstdə də ciddi əks-səda doğurub. Cənubi Qafqazda yeni reallıqlar yaranıb və bu reallıqların mərkəzində güclü, suveren Azərbaycan dövləti dayanır. Bu gün regionun enerji, nəqliyyat və təhlükəsizlik arxitekturasında Azərbaycanın rolu suverenliklə birbaşa bağlıdır. Eyni zamanda Azərbaycanın prinsipial mövqeyi beynəlxalq hüququn aliliyinə əsaslanır. Bu da ölkəmizin suverenliyinin legitim və hüquqi bazasını gücləndirir.

Azərbaycanın əldə etdiyi zəfərin ən ali nəticəsi onun suverenliyidir. Bu suverenlik nə yalnız hərbi güc, nə də diplomatik manevrlər nəticəsində bərpa olunub. Bu, xalqın birliyi, dövlətin strateji uzaqgörənliyi və milli iradənin təcəssümüdür. Zəfər yalnız qələbə deyil, öz torpağında azad yaşamaq haqqının təminatıdır. Və bu baxımdan tam haqlı olaraq deyə bilərik ki, Zəfərin tacı suverenlikdir.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

Azərbaycan. - 2025.- 21 sentyabr (№202).- S.6.